1. Ümumtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında 28 may – Respublika gününə həsr olunmuş vətənpərvərlik mövzusunda ifa üzrə respublika müsabiqəsi keçirilsin.

2. Müsabiqənin əsasnaməsi, təşkilat komitəsinin və münsiflər heyətlərinin tərkibləri təsdiq olunsun.

3. Naxçıvan Muxtar Respublikasının Təhsil naziri, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Gəncə Şəhər Təhsil İdarəsinin, rayon, şəhər təhsil şöbələrinin müdirləri və ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərləri, Nazirliyin birbaşa tabeliyində olan təhsil müəssisələrinin rəhbərləri müsabiqənin yerlərdə keçirilməsini təşkil etsinlər.

4. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsi (A.İbrahimov) müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsini təmin etsin.

5. Müsabiqənin respublika mərhələsinin keçirilməsi ilə bağlı xərclərin ödənilməsi T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının 2013-cü ilə təsdiq olunmuş xərclər smetasının müvafiq xərc maddələrində nəzərdə tutulmuş vəsait hesabına müəyyən edilmiş qaydada həyata keçirilsin.

6. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) müsabiqənin Respublika mərhələsinin keçirilməsi ilə bağlı xərclərin ödənilməsi məqsədilə T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının 2013-cü ilə təsdiq olunmuş xərclər smetasında müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin.

7. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və əlavələrlə birlikdə nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

8. Ümumi şöbə (X.Fərəcov) əmr və əsasnamənin çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

9. Əmrin icrasına nəzarət nazir müavini Q.Novruzova həvalə olunsun.

Əsas: Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin 2013-cü il üçün illik fəaliyyət planı.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***25 fevral 2013-cü il***

***№302***

---

**Əlavə:**

**1.** Ümumtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında 28 may - Respublika gününə həsr olunmuş ifa üzrə respublika müsabiqəsinin əsasnaməsi

**2.** Ümumtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında 28 may - Respublika gününə həsr olunmuş ifa üzrə respublika müsabiqəsinin təşkilat komitəsi